# 2025 MDB oyunları

*2025-ci ildə Azərbaycanın Gəncə və digər 6 şəhərində keçirilən sayca III MDB Oyunlarının açılış və bağlanış mərasimləri Gəncədə keçirilmişdir. 8 idman növü üzrə 2025-ci il sentyabrın 28-də yarışlar start götürmüş və oktyabrın 8-də yekunlaşmışdır. Yarışda 8 ölkədən 1846 idmançı iştirak etmişdir. Tədbirin şüarı belədir: "Hər qəlbdə bir qələbə!"*

*Qeyd edək ki, Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinin idmançıları arasında keçirilən idman yarışları ilk dəfə 2021-si ildə Rusiyanın Kazan şəhərində keçirilmişdir. İkinci yarış Belarusiyanın paytaxtı Minsk şəhərində keçirilmişdir. Həmçinin bu yarışa MDB ölkələrindən əlavə olaraq başqa ölkələr də dəvət edilmişdi.*

*III MDB Oyunları Azərbaycanın 7 şəhərini - Cəncə, Qəbələ, Yevlax, Göygöl, Mingəçevir, Şəki, Xankəndini əhatə etmişdir.*

## III MDB Oyunları: Azərbaycanın stolüstü tennis komandası Özbəkistana qalib gələrək finala yüksəlib

Azərbaycanın ev sahibliyi etdiyi III MDB Oyunlarında stolüstü tennis yarışlarına start verilib. Qəbələ Olimpiya İdman Kompleksində təşkil olunan yarışların ilk günü Azər-




baycan və Özbəkistanın qadınlardan ibarət komandaları yarımfinalda üz-üzə gəlib, Azərbaycan millisi rəqibini 2:1 hesabı ilə üstələyərək finala vəsiqə qazanıb. Yığmamız finalda Rusiya seçməsi ilə qarşılaşacaq.

## Azərbaycan III MDB Oyunlarında ilk medallarını qazanıb




Azərbaycanın ev sahibliyi etdiyi III MDB Oyunlarında stolüstü tennis üzrə komanda yarışlarına yekun vurulub. Qəbələ İdman Kompleksində təşkil olunan yarışda qızlar və oğlanlardan ibarət komandaların final qarşılaşmaları keçirilib. Azərbaycan hər iki kateqoriyada Rusiya ilə üz-üzə gəlib. Oğlanlardan və qızlardan ibarət millilərimiz 0:2 hesabı ilə məğlub olaraq turnirin gümüş medallarına sahib olub. Rusiya yığmaları isə qızıl medala layiq görülüb.

## Azərbaycanın futbol millisi III MDB Oyunlarına qələbə ilə başlayıb

Azərbaycanın ev sahibliyi etdiyi III MDB Oyunlarının proqramına uyğun olaraq, sentyabrın 27-də Qəbələ şəhər stadionunda futbol yarışlarına start verilib. Birinciliyin ilk oyununda Aqil Nəbiyevin başçılıq etdiyi Azərbaycan (U-16) millisi Tacikistanın U-16 komandası ilə qarşılaşıb. Oyuna başlamazdan əvvəl Azərbaycanın Dövlət Himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Görüş Azərbaycan millisinin 1-0 hesablı qələbəsi ilə başa çatıb. Qarşılaşmada qolu 29-cu dəqiqədə Xəzər Hüseynzadə vurub. Günün ikinci matçında isə Rusiya və Belarus yığmaları üz-



üzə gəliblər. Görüş qolsuz heç-heçə ilə başa çatıb. Qeyd edək ki, futbol yarışında 6 ölkənin - Azərbaycan, Tacikistan, Qırğızıstan, Belarus, Rusiya və Özbəkistanın komandaları mübarizə aparırlar. Yarışlara oktyabrın 4-də yekun vurulacaq.

## Azərbaycanın stolüstü tennisçiləri III MDB Oyunlarında gümüş medal qazanıblar

Qəbələ Olimpiya İdman Kompleksində keçirilən stolüstü tennis üzrə qoşa yarışların finalında Adil Əhmədzadə və Onur Quluzadə rusiyalı Yevgeni Vasikov və Yevgeni Dosov



cütü ilə qarşılaşıblar. Rəqibə 3:0 hesabı ilə uduzan idmançılarımız ikinci yerlə kifayətləniblər.

## Stolüstü tennis yarışlarının qalibləri müəyyənləşib



III MDB Oyunları çərçivəsində Qəbələ Olimpiya Kompleksində keçirilən stolüstü tennis yarışlarına yekun vurulub. Rusiya komandası bu idman növündə 10 medal (9 qızıl, 1 gümüş) qazanaraq birinci olub. 6 gümüş, 3 bürünc medal qazanan Azərbaycan idmançıları ikinci, 1 gümüş, 6 bürünc medalla Belarus isə üçüncü yerə layiq görülüb. Özbəkistan dördüncü, Qazaxıstan isə beşinci yeri tutub. Sonda qaliblərə mükafatlar təqdim edilib.

## III MDB Oyunlarında daha iki futbol matçı keçirilib

Azərbaycanın ev sahibliyi etdiyi III MDB Oyunları çərçivəsində daha iki futbol matçı keçirilib. Qəbələ Şəhər Stadionunda təşkil olunan B qrupunun ikinci oyununda Belarus və Özbəkistan komandaları qarşılaşıb. Görüş Belarus yığmasının 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.



Günün digər oyunu - A qrupunda yarışan Qırğızıstan və Tacikistan milli komandaları arasında keçirilən görüş isə Tacikistan yığmasının 7:1 hesablı qələbəsi ilə yekunlaşıb.

## III MDB Oyunlarında badminton üzrə qarışıq komanda yarışları yekunlaşmışdır

Azərbaycanın ev sahibliyi etdiyi III MDB Oyunlarında badminton üzrə qarışıq komanda yarışının qalibi müəyyənləşib. Qəbələ Olimpiya İdman Kompleksində



keçirilən final matçında Özbəkistan və Rusiya yığmaları qarşılaşıb. Görüş Rusiyanın 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. Azərbaycan millisi isə bürünc mükafata sahib olub. Sonda qaliblərə mükafatlar təqdim edilib.




III MDB Oyunlarının Təşkilat Komitəsinin sədri Samir Şərifov yarışların uğurla başa çatdığını bildirib. O deyib: "On bir gün ərzində Oyunlara ev sahibliyi edən Gəncə, Şəki, Qəbələ, Yevlax, Mingəçevir, Göygöl və Xankəndi şəhərləri möhtəşəm idman bayramının şahidinə və bilavasitə iştirakçısına çevrilib. Müstəqil Dövlətlər Birliyinə daxil olan 8 ölkənin və Oyunlara qatılan daha 5 ölkənin idmançıları 23 idman növü üzrə yarışlarda öz məharətlərini, əzmkarlıqlarını nümayiş etdirdilər. Onlar 235 dəst fərdi və komanda mükafatları uğrunda mübarizə apararaq milyonlarla idmansevərə unudulmaz sevinc, həyəcan, həmçinin qürur dolu anlar yaşatdılar. Bu möhtəşəm idman bayramının ərsəyə gəlməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdiyi qayğının təzahürüdür. Əminliklə deyə bilərik ki, Azərbaycanda keçirilən III MDB Oyunlarının təşkilində ən yüksək standartlar təmin edilib".

Azərbaycan Oyunları ümumilikdə 184 medalla başa vurub. Bunların 33-ü qızıl, 56-sı gümüş, 95-i isə bürünc mükafatdır. Ölkəmiz bu göstərici ilə ümumi medal sıralamasında 2-ci yeri tutub. İlk sırada Rusiya qərarlaşıb. Beləliklə, Azərbaycan idmançıları 2021-ci ildən təşkil olunan MDB Oyunlarında ən yaxşı nəticəsinə imza atıb. Ölkəmiz I Oyunlarda 60 (16 qızıl, 16 gümüş, 28 bürünc), ikincidə isə 62 (10 qızıl, 17 gümüş və 35 bürünc) medal əldə etmişdi.

III MDB Oyunlarına Azərbaycanın yeddi şəhəri - Gəncə, Şəki, Qəbələ, Yevlax, Mingəçevir, Göygöl və Xankəndi ev sahibliyi edib.

**"Qəbələ səsi"**

**Fotolar S. Umuyevindir.**